# Tovuz döyüşlərinin ikinci ildönümü

2020-ci il İyulun 14-də səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutmuşdu. Düşmənin təxribat xarakterli hücumu nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovniki İlqar Mirzəyev və həmçinin daha beş hərbi qulluqçu şəhid olmuşdu. İyul hadisələri zamanı 12 nəfər şəhadətə qovuşmuşdu.

İyul hadisələrində şəhid olan general Polad Həşimov Qəbələnin Vəndam qəsəbəsində doğulub, Sumqayıt şəhərində boya-başa çatmışdı.

Bakıda, Sumqayıtda və Qəbələdə küçələrdən birinə Polad Həşimovun adı verilib. Bundan başqa, Türkiyənin Osmanqazi rayonunda Polad Həşimovun adını daşıyan park salınıb.

Artıq bu il - 14 iyul 2022-ci il tarixində Tovuz döyüşlərinin ikinci ildönümünü geridə qoyduq. Bu münasibətlə ölkənin müxtəlif yerlərində silsilə tədbirlər keçirilib. Bu tədbirlərdən biri də Vəndam qəsəbəsin E. Mehdiyev adına 1 saylı tam orta məktəbin qarşısında yerləşən şəhidlərə ayrılmış xüsusi guşədə keçirilib. Tədbir şəhidlərimizi bir dəqiqəlik sükutla yad etdikdən sonra açıq elan edilib. Tədbirdə rayon icra hakimiyyətinin, idarə və müəssisələrin nümayəndələri, Polad Həşimovun silahdaşları, şəhid ailələri,qazilər və qəsəbə sakinləri, vətənpərvər insanlar iştirak etmişlər.

# Şəhid ailəsi ziyarət edilmişdir



Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndələri və icra hakimiyyəti yanında ictimai şuranın üzvləri 44 günlük Vətən müharibəsi şəhidi Babayev Ağaşirin Feruz oğlunun ailəsini evlərində ziyarət etmişlər. Ziyarətçilər şəhidin ailə üzvləri ilə söhbət etmiş, problemləri ilə maraqlanmışlar.Şəhidin ailə üzvləri şəhid ailələrinə göstərilən dövlət dəstəyinə, diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# Tarixə iz salanda




Vəndam qəsəbə 1 və 2 saylı tam orta məktəblərində Tovuz döyüşlərinin ikinci ildönümünə həsr olunmuş anım tədbirləri keçirilmişdir. Tədbirlərdə Dövlət Himni səsləndirilmiş, torpaqlarımız uğrunda şəhid olan vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, digər zabit və əsgərlər haqqında video-çarx nümayiş etdirilmiş, şagirdlər şəhidlərimizə həsr olunmuş şeir və mahnılar ifa etmişlər.

# Mən hansı bir insana bənzədim ki...

**Sənə sevgi ünvanı**

***Deyirlər mənim də düşmənlərim var,***
***Adımı, imzamı asanlar olur.***
***Deyirlər kölgəmi qılınclayanlar,***
***Deyirlər rəddimi qazanlar olur.***

Bəzən insanlar həyatda cismən yaşamasa da, əbədiyaşarlığıyla da mübariz olurlar. Bu mübarizlik onların yaşam və həyat tərzindən, insani keyfiyyətlərindən doğulur. Cismən olmasa da onların ruhları belə öz dünyasının canlıları sayılar, həyatın hər anlamında canlı yaşar. Onlar şəhid ömrü yaşayanlardır: Məhz Polad kimi!

Məmməd Araz qələmiylə desək:

***Çək gətir günəşi yastığın elə,***
***Tök gətir yaxana düz ulduzları***
***Silək günbatanın işartısını...***
***Çayları yükləyib çəkək qapına,***
***Dağları döndərək qızıl qalağa...***

Kimə bənzədim səni... Sən həyatını bənzərsiz yaşadın, özünə bənzərlər yaratmaq üçün... İki il əvvəl Tovuz döyüşlərində demək olar ki, qətl olunan 12 qəhrəmanın qəhrəmanlıq savaşında dəstəbaşı oldun. Qardaş, övlad saydıqlarının ölüm anında belə arxa-dayağı oldun, ölümsüzlük yolunda komandanı oldun. Sən tarixə, tarix adına yazıldı Polad qəhrəmanım. Sənin timsalında Tovuz şəhidləri Vəndam qəsəbəsində daima anılır. Sənə aid olan bu kiçicik guşə minlərlə insanın sənə sevgi ünvanı...

**Polad ünvanı**

Polad İsrayıl oğlu Həşimov 1975-ci yanvarın 2-də Vəndam qəsəbəsində doğulub. Hələ körpə ikən ailəsinin Sumqayıt şəhərinə köçməsi ilə əlaqədar uşaqlıq və gəncliyini Sumqayıt şəhərində yaşamışdır. Şəhərin əvvəlcə 28, sonra isə 34 saylı məktəblərində orta təhsil almış və Bakı Ali Hərbi məktəbində təhsilini davam etdirmişdir.



Polad əsl hərbçi kimi yetişmiş və orduya xidmətə gələn gənclərə vətənpərvərlik təlqin etmişdir. Yeni əsgərlərə də, rütbəcə ondan aşağı və yüksək olanlara da həmişə yaxın dost, sirdaş olmuş, onlara insanlıq baxımından yanaşmışdır. Məhz buna görə də milyonların sevgisini qazanmışdır. 2020-ci ilin iyul hadisələri zamanı da məhz səngərdə, əsgərlərinin yanında olmuş, xain düşmənin atəşinə nişan olmuşdur.

Şəhid adı, şəhadətə qovuşma ölümlərin ən alisidir. Bu, insanlığın son nöqtəsidir. Bu, əbədiyaşarlıqdır və hər kəsə nəsib olmur bu şərəfli ölüm.

Polad Həşimov- Azərbaycanın Milli Qəhrəmanı general-mayor, Azərbaycanın Zəfər tarixini yazan öncülərdəndir. Bütün dünyada,- hərb sənətində, ordu quruculuğunda, milli-mənəvi zənginlikdə, vicdanı böyüklükdə, insanlıq səviyyəsində ən ali biridir Polad! Ünvanı isə insanların qəlbidir, çünki hər bir vətənpərvər insanın qəlbində yaşayır.

2 ildir sənsiz açılan sabahlar, doğan günəşlər, titrəyən buludlar, coşan şimşəklər, hayqıran küləklər, çağlayan şəlalələr, gurlayan çaylar səni xatırladır bu həyatda! Sən hər kəsin qəlbində bir vulkan - Vətən deyəndə püskürməyə hazır vulkan! Məkanın cənnət olsun, əbədiyaşar general!

**BİBİXANIM.**

# Qurban bayramı

Qurban bayramı və ya dini qurban kəsmə bayramı İslam dünyasında ən müqəddəs bayramlardan biri sayılır. Qurban bayramı bütün müsəlman aləmində hər il Hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən üç gün davam edir. Bu il müvafiq tarix miladi təqvimlə iyulun 9-na təsadüf etdi. Mərasimlərdə adətən qoyun, qoç, keçi, dana və ya dəvə kəsilir. İslam dininin qaydalarına əsasən kəsilən heyvanlar sağlam olmalıdır. Qurban bayramında ölkənin bütün məscidlərində bayram namazı qılındı.

Qurban bayramına dair hökmlərə və şəriət qaydalarına əsasən, qurban kəsmək Məkkədə həcc ziyarətini icra edən zəvvarlara vacib buyurulmuşdur. Digər yerlərdə isə imkanı olan adamların qurban kəsmələri sünnət əməl, Qurban ətini kasıb ailələrə paylamaq - böyük savab sayılır.

Qurbankəsmə ayini təmizlik və yüksək sanitariya şəraitində, münasib yerlərdə icra edilməlidir. Adətən müəyyən yaş həddinə çatmış heyvanlar kəsilir. Keçi və qoyunun yaşı bir ilə yaxın, öküz və inək bir və ya iki ildən artıq, dəvənin isə beş ili tamam olmalıdır.

Dini qurban kəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranıb. Əhvalata görə, yuxuda Allah İbrahim peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onların Allaha imanını yoxlamaq üçün) əmr edir. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazırlaşır, İsmayıl özü də qurban olmağa razılaşır. Bu haqda Müqəddəs “Qurani-Kərim”də yazılıb. Allaha qəlbən yaxın və sadiq olduğunu sübut etmək istəyən İbrahim Peyğəmbər oğlu İsmayılı qurban kəsməyə hazırlayır. Lakin Allah bunu öz elçisinə rəva bilməyərək ona bir qoç göndərir. Odur ki, Qurbanlıq bayramında kəsilən qurbana “İsmayıl qurbanı” da deyirlər.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli “Azərbaycan Respublikasının bayramları haqqında” qanuna əsasən, Qurban bayramı Azərbaycanda dövlət səviyyəsində bayram edilir.

# Ziyarət olunublar

Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndələri tərəfindən Vətən müharibəsində şəhid olmuş qəhrəman oğulların ailələri, sağlamlığını itirmiş qazilər, müharibə iştirakçıları, eləcə də aztəminatlı ailələr Qurban bayramı münasibətilə evlərində ziyarət olunmuş, onlara bayram sovqatı çatdırılmışdır. Ziyarətçilər şəhidlərimizin əziz xatirəsinin xalqımız tərəfindən hər zaman əziz tutulduğunu, şəhid ailələrinin, qazilərin, müharibə iştirakçılarının, eləcə də aztəminatlı ailələrin daim dövlətimizin diqqət mərkəzində saxlanıldığını qeyd etmiş və bayram münasibətilə onları təbrik etmişlər.



# “Biz hər zaman sizinləyik”

Qəbələ Rayon İcra Hakimiyyətinin, uşaq və ailələrə dəstək mərkəzinin təşkilatçılığı ilə keçirilən “Biz hər zaman sizinləyik” adlı tədbirdə RİH-nin nümayəndələri, Uşaq və Ailələrə Dəstək Mərkəzinin əməkdaşları, vətən müharibəsində döyüşmüş qazi və şəhidlərin ailələri, təkvalideynli uşaqlar və aztəminatlı ailələr iştirak etmişdir. Tədbirdə çıxış edənlər 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüz uğrunda həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsinin əbədi yaşayacağını, onların şərəfli döyüş yollarının gənclərimizə örnək olduğunu qeyd etmişlər. Tədbirin sonunda uşaqlar arasında müxtəlif oyunlar keçirilmiş, rəqslər edib, mahnılar səsləndirmişlər.